**Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələrinin alınması və istismarı zamanı büdcə vəsaitlərinin səmərəli istifadə olunmasını təmin etmək, bu sahədə nəzarəti gücləndirmək və normativ hüquqi bazanı təkmilləşdirmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda (hərbi qurumlar, *dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidməti,* hüquq mühafizə və prokurorluq orqanlarında xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri istisna olmaqla) xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri üçün aylıq yürüş həddi və istismar xərclərinin Normaları" təsdiq edilsin (1 nömrəli əlavə).[1]

2. "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, *dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidməti,* hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)" təsdiq edilsin (2 nömrəli əlavə).

3. Bakı Şəhər İcra Hakimiyyəti başçısının aparatı üçün xidməti minik avtomobillərinin say həddi (limiti) 13 ədəd, rayon (şəhər) icra hakimiyyəti başçısı, onun müavinləri, *yanında olan orqanların rəhbərləri,* şəhər üzrə nümayəndəsi, qəsəbə və kənd nümayəndələri (əhalisinin sayı 10 min nəfərdən artıq olan), Bakı Şəhər İcra Hakimiyyəti *başçısının yanında olan ~~dövlət büdcəsindən maliyyələşən~~ orqanların* rəhbərləri, rayon (şəhər) məhkəmələrinin hər biri üçün xidməti minik avtomobillərinin say həddi (limiti) bir ədəd, Bakı, Gəncə və Sumqayıt şəhər məhkəmələrinin hər biri üçün isə iki ədəd olmaqla müəyyən edilsin.[2]

4. Müəyyən edilsin ki:

4.1. dövlət orqanlarında xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələrinin icarəyə götürülməsinə (beynəlxalq və respublika əhəmiyyətli tədbirlərin həyata keçirilməsi vaxtı istisna olmaqla) yol verilmir;

4.2. Azərbaycan Respublikasının dağlıq və dağətəyi rayonlarında rayon icra hakimiyyəti başçısına təhkim olunmuş xidməti minik avtomobili bu qərarın 4-cü bəndinin tələbləri gözlənilməklə, yüksəkkeçidli avtomobil kateqoriyasından ola bilər.

5. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə, şəhər və rayon icra hakimiyyətlərinin başçılarına tapşırılsın və məhkəmə hakimiyyəti orqanlarının rəhbərlərinə (bu bəndin 5.3-cü və 5.4-cü yarımbəndlərinə münasibətdə) tövsiyə edilsin ki:

5.1. rəhbərlik etdikləri orqanların strukturuna daxil olmayan, tabeliyində olan dövlət büdcəsindən maliyyələşən qurumlarda (idarə, müəssisə və təşkilatlarda) xidməti minik avtomobillərinin say həddinin (limitinin) müəyyən edilməsi barədə təkliflərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, 2 ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər;

5.2. rəhbərlik etdikləri dövlət orqanlarında və onların yerli bölmələrində, dövlət orqanlarının strukturuna daxil olmayan, tabeliyində olan dövlət büdcəsindən maliyyələşən qurumlarda (idarə, müəssisə və təşkilatlarda) bu qərarla müəyyən edilmiş normalara ciddi riayət olunması üzərində nəzarəti təmin etsinlər;

5.3. xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələrinin dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər çərçivəsində alınması, təyinatı üzrə istifadəsi və saxlanılması sahəsində nəzarəti gücləndirsinlər və bu sahədə neqativ hallara yol verilməsinin qarşısını alsınlar;

5.4. 2 ay müddətində bu qərarın 2-ci və 3-cü bəndlərinin tətbiq edilməsi ilə əlaqədar müəyyən olunmuş say həddindən (limitdən) artıq olan xidməti minik avtomobillərinin mövcud qanunvericiliyə uyğun olaraq satılması üçün zəruri olan sənədləri Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim etsinlər.

6. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyət göstərdikləri ölkələrin yerli şəraiti nəzərə alınmaqla, xidməti minik və digər avtonəqliyyat vasitələri üçün aylıq yürüş həddinin və istismar xərclərinin normaları, xidməti minik avtomobillərinin say həddi (limiti) barədə təkliflərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, 3 ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

7. "Büdcədən maliyyələşdirilən təşkilatlarda (hərbi qurumlar, milli təhlükəsizlik, hüquq mühafizə və prokurorluq orqanları istisna olmaqla) xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri üçün yürüş və neft məhsullarının aylıq normaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 8 dekabr tarixli 190 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.

8. "Ali və yerli dövlət hakimiyyəti və idarəetmə orqanlarının ştat və xidməti minik avtomobillərinin sayının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 14 yanvar tarixli 12 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.

9. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Muxtar Respublikanın büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələrinin alınması və istismarı zamanı büdcə vəsaitlərinin səmərəli istifadə olunmasını təmin etmək məqsədi ilə müvafiq qərar qəbul etsin.

10. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 18 iyul 2011-ci il
120

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2011-ci il 18 iyul tarixli 120 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**1 NÖMRƏLİ ƏLAVƏ**

**Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda (hərbi qurumlar, *dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri,* hüquq mühafizə və prokurorluq orqanlarında xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri istisna olmaqla) xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri üçün aylıq yürüş həddi və istismar xərclərinin**[3]

**N O R M A L A R I**

1. Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda (hərbi qurumlar, *dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri*, hüquq mühafizə və prokurorluq orqanlarında xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri istisna olmaqla) xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri üçün aylıq yürüş həddi aşağıdakı kimi müəyyən edilir:

| Sıra -si | Avtomobillərin növləri | Aylıq yürüş həddi (km) |
|---|---|---|
| 1. | Xidməti minik avtomobilləri | 2000 |
| 2. | Yük avtomobilləri | 1500 |
| 3. | Avtobuslar | 1500 |
| 4. | Xüsusi təyinatlı avtonəqliyyat vasitələri (təcili tibbi yardım və yanğınsöndürən avtomobillərdən başqa) | 1500 |
| 5. | Motosiklet və motorollerlər | 500 |
| 6. | Qonaqlara xidmət edən minik avtomobilləri | 1000 |

2. Bu Normalar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tam iş vaxtı üçün nəzərdə tutulur.

3. Dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatların (hərbi qurumlar, *dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri*, hüquq mühafizə və prokurorluq orqanlarında xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri istisna olmaqla) balansında olan (istismara yararlı vəziyyətdə) avtonəqliyyat vasitələrinin sayı mövcud sürücü ştatlarının sayından çox olduqda, avtonəqliyyat vasitələri onun təhkim olunduğu vəzifəli şəxs tərəfindən müvafiq qaydada idarə oluna bilər. Bu zaman həmin avtonəqliyyat vasitəsinə yanacaq xərci ayrılmış vəsaitlər dairəsində bu Normalara uyğun olaraq ödənilir.

4. İşin xüsusiyyətləri nəzərə alınmaqla, yürüşün aylıq norması Azərbaycan Respublikasının *ali-III kateqoriyalı* dövlət orqanlarının rəhbərlərinə və şəhər (rayon) icra hakimiyyəti başçılarına xidmət edən nəqliyyat vasitələri üçün 40 faiz, onların birinci müavinlərinə və müavinlərinə xidmət edən nəqliyyat vasitələri üçün 20 faiz artırılır.

Fasiləsiz iş şəraitində işləyən müəssisələrin avtomobilləri*, habelə "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində göstərilən xidmətlərin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən səyyar formada təşkilində istifadə edilən xüsusi təyinatlı avtonəqliyyat vasitələri və avtobuslar, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Sahələrarası Nəqliyyat və Kompleks Mexaniki Təminat İdarəsinin balansında olan ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsi məqsədilə istifadə edilən nəqliyyat vasitələri* üzrə yürüşün aylıq norması avtomobillərin qət etdiyi məsafəyə uyğun müəyyən edilir.[4]

5. Avtomobillərin bir ədədi üçün 100 km yürüşə görə yanacaq sərfi norması həmin avtomobillərin texniki göstəricilərinə əsasən hər 100 km məsafəyə görə istifadə olunan yanacağın miqdarına uyğun olaraq müəyyən edilir.

6. Yanacaq sərfinin xətt normaları (hər 100 km yürüşə görə yanacaq sərfi) aşağıdakı hallarda:

6.1. artırılır:

a) qış vaxtında işlədikdə vaxt: - 5 faizə qədər

b) kondisioner istifadə olunduğu hallarda yanacaq sərfi nəqliyyat vasitəsinin texniki göstəricilərinə əsasən müəyyən edilir;

c) dəniz səviyyəsinə görə yüksəklikdə işlədiyi vaxt:

1000-dən 1500 metrə qədər - 5 faiz
1501-dən 2000 metrə qədər - 10 faiz
2001-dən yuxarı - 15 faiz

ç) yüklərin daşınması üçün avtomobilin aşağı sürətlə hərəkəti tələb olunduğu şəraitdə - 10 faizə qədər

d) əsaslı təmirdən çıxmış və təzə avtomobillərin istismarı zamanı birinci 1000 km yürüşə görə - 5 faizə qədər

e) meşə materiallarının daşınması üçün meşə sahələrindən əsas magistrala qədər hərəkət zamanı - 20 faizə qədər

ə) tez-tez dayanmaq tələb olunan şəhər ərazisində işlədiyi şəraitdə (ümumi gediş üzrə orta hesabla 1 km yola 1 dayanacaqdan artıq olduqda) - 10 faizə qədər

6.2. azaldılır:

şəhərdənkənar təkmilləşdirilmiş örtüklü yollarda işləyən zaman - 15 faizə qədər.

7. Xüsusi təyinatlı avtomobillərin işlədiyi vaxt yanacaq sərfinin xətt norması nəzərdə tutulmuş hər ton çəkinin

artması müqabilində aşağıdakı miqdarda artırılır:
benzin - 2 litr
sıxılmış qaz - 2,5 litr
dizel yanacağı - 1,3 litr.

8. Yerinə yetirdiyi işləri ton/km-lə hesablanan avtomobillər və avtoqatarlar üçün hər 100 km-ə əlavə yanacaq aşağıdakı miqdarda artırılır:
benzin - 2 litr
sıxılmış qaz - 2,5 litr
dizel yanacağı - 1,3 litr.

Avtomobillərin qoşqularla işlədiyi vaxt yanacaq sərfinin xətt norması qoşquların xüsusi çəkisinin hər 1 tonuna görə aşağıdakı miqdarda artırılır:
benzin - 2 litr
sıxılmış qaz - 2,5 litr
dizel yanacağı - 1,3 litr.

9. Yükünü özüboşaldan avtomobillər və özüboşaldan, gövdəsi olan avtokarlar üçün əlavə yanacaq sərfi hər bir yüklü gedişə görə 0,25 litr miqdarında müəyyən edilir.

Avtomobil özüboşaldıcı qoşqularla işlədiyi vaxt yanacaq sərfinin xətt norması qoşqu-hərəkət heyətinin ümumi çəkisinin hər tonuna görə aşağıdakı kimi artırılır (onun 50 faiz sərfəli yüklənməsinə):
benzin - 2 litr
sıxılmış qaz - 2,5 litr
dizel yanacağı - 1,3 litr.

10. Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda avtonəqliyyat vasitələrinin saxlanılması məqsədi ilə təşkilatların balansında olan (istismara yararlı vəziyyətdə) avtonəqliyyat vasitələrinin hər biri üçün hər il dövlət büdcəsində vəsaitlər aşağıdakı qaydada nəzərdə tutulur:

10.1. avtonəqliyyat vasitələrinə yanacaq xərcləri - hər bir avtonəqliyyat vasitəsinə bu Normaların tələblərinə uyğun olaraq hesablanmış yanacaq tələbatının dəyəri həcmində;

10.2. sürtgü materiallarının (mühərrik yağı, əyləc mayesi, soyuducu və digər mayelər) alınması xərcləri - aylıq yürüş həddinə uyğun olaraq, yanacaq sərfinin baza xətt normalarına əsasən nəzərdə tutulmuş yanacaq xərcinin 10 faizi məbləğində;

10.3. avtonəqliyyat vasitələrinə ehtiyat hissələrinin alınması və cari təmir xərcləri - aylıq yürüş həddinə uyğun olaraq, yanacaq sərfinin baza xətt normalarına əsasən hesablanmış yanacaq xərcinin 30 faizi məbləğində.

11. Nəqliyyat vasitələrinin əsaslı təmiri təqdim olunan sənədlər əsasında (əsaslı təmirə dayanmanın səbəbləri haqqında arayış, nöqsan aktı, təmir işlərini aparmalı olan təmir müəssisəsindən müvafiq sənəd və s.) dövlət büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2011-ci il 18 iyul tarixli 120 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**2 NÖMRƏLİ ƏLAVƏ**

**Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, *dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri,* hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)**[5]

(ədəd)

| | **Orqanın adı** | **Avtomobillərin say həddi (limiti)** | | | |
|---|---|---|---|---|---|
| | | **cəmi** | **o cümlədən** | | |
| | | | **aparat üzrə** | **yanında olan orqanlar üzrə** | **ərazi və yerli bölmələr üzrə** |
| **1** | **2** | **3** | **4** | **5** | **6** |
| 1. | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | ***25*** | *25*[6] | | |
| 2. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi[7] | ***79*** | *19* | ~~*2*~~ | *60* |
| 3. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | **75**[8] | 10 | | 65 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 4. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | **8** | 5 | | 3 |
| 5. | Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi[9] | ***22*** | 6 | | *16*[10] |
| *5-1.*[11] | *Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi* | ***3*** | *3* | | |
| 6. | Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi[12] | **7** | 5 | 2 | |
| 7.[13] | Azərbaycan Respublikasının İqtisadiyyat ~~*və Sənaye*~~ Nazirliyi | ***22*** | *14* | | 8 |
| 8.[14] | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | **7** | 7 | | |
| 9.[15] | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | ***84*** | *18* | | 66 |
| 10. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | **36** | 8 | 9 | 19 |
| 11. | Azərbaycan Respublikasının *Energetika* Nazirliyi[16] | **30** | 8 | 4 | 18 |
| ~~12.~~ | ~~Azərbaycan Respublikasının Vergilər Nazirliyi~~[17] | ~~**83**~~ | ~~15~~ | ~~3~~ | ~~65~~ |
| 13.[18] | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | ***82*** | *6* | | 76 |
| 14. | Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi | **7** | 7 | | |
| 15. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | *7*[19] | *7* | | |
| *15-1*[20] | *Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi* | ***3*** | *3* | | |
| 16. | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | **81** | 5 | | 76 |
| 17. | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi[21] | **8** | 5 | 3 | |
| 18. | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | **4** | 4 | | |
| ~~19.~~[22] | ~~Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi~~ | ~~**69**~~ | ~~4~~ | - | ~~65~~ |
| ~~20.~~[23] | ~~Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi~~ | ~~**6**~~ | ~~6~~ | - | - |
| 21. | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi[24] | ***21*** | *6*[25] | | *15* |
| 22. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi | **25** | 6 | 1 | 18 |
| 23. | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi | ***4*** | *4*[26] | | |
| ~~24.~~[27] | ~~Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi~~ | ~~**6**~~ | ~~6~~ | ~~1~~ | ~~14~~ |
| *24-1.*[28] | *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi* | *22* | *11* | | *11* |
| 25. | Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası[29] | **19** | 19 | | |
| ~~26.~~ | ~~Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya~~[30] | ~~**3**~~ | ~~3~~ | - | - |
| 27. | Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası | **4** | 4 | | |
| *27-1.* | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi[31] | ***18*** | *7*[32] | | 11 |

| | | | | | |
|---|---|---|---|---|---|
| *27-2*[33] | *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi* | ***1*** | *1* | | |
| ~~28.~~ | ~~Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası~~ | ~~**7**~~ | ~~3~~ | - | ~~4~~ |
| ~~*29.*~~ | ~~*Azərbaycan Respublikasının Satın-almalar üzrə Dövlət Agentliyi*~~[34] | ~~***4***~~ | ~~*4*~~ | - | - |
| ~~30.~~ | ~~Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi~~[35] | ~~**2**~~ | ~~2~~ | - | - |
| 31. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti | **3** | 3 | | |
| *31-1* | *Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidməti* | *3* | *3* | | |
| *31-2* | *Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Torpaqların Dövlət İdarəetməsinin Təşkili üzrə Dövlət Agentliyi*[36] | *3* | *3* | | |
| 32. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti[37] | **3** | 3 | | |
| 33. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti | ***3*** | 3 | | |
| 34. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında *Aqrar Kredit və İnkişaf Agentliyi*[38] | ***4*** | *4* | | |
| *34-1* | *Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət*[39] | ***3*** | *3* | | |
| *34-2.* | *Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Baş Dövlət Texniki Nəzarət Xidməti*[40] | *19* | *2* | | *17* |
| 35. | Azərbaycan Respublikasının İqtisadiyyat ~~*və Sənaye*~~ Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti[41] | ***15*** | *7* | | 8 |
| *35-1.* | *Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi*[42] | *2* | *2* | - | - |
| ~~36.~~ | ~~Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu~~[43] | ~~**2**~~ | ~~2~~ | - | - |
| 37. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti | **18** | 3 | | 15 |
| 38. | *Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi*[44] | **3** | 3 | | |
| 39. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi | **15** | 3 | | 12 |
| ~~40.~~[45] | ~~Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidməti~~ | ~~**3**~~ | ~~3~~ | - | - |
| 41. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti | **6** | 3 | | 3 |
| 42. | Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi yanında Avtomobil Nəqliyyatı Xidməti | **17** | 3 | | 14 |
| 43. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti[46] | ***82*** | 4 | | *78* |

| | | | | | |
|---|---|---|---|---|---|
| ~~*44.*~~ | ~~*Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidməti*~~[47] | ~~*77*~~ | ~~*2*~~ | - | ~~*75*~~ |
| 45. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti | **26** | 4 | | 22 |
| *45-1.*[48] | *Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti* | ***2*** | *2* | | |
| 46. | *Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi*[49] | **2** | 2 | | |
| ~~*47.*~~[50] | ~~*Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti*~~ | ~~*9*~~ | ~~*2*~~ | - | ~~*7*~~ |
| ~~*48.*~~ | ~~*Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Dövlət Metrologiya Xidməti*~~ | ~~*2*~~ | ~~*2*~~ | - | - |
| ~~*49.*~~[51] | ~~*Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Dövlət Akkreditasiya Xidməti*~~ | ~~*2*~~ | ~~*2*~~ | - | - |
| *50.* | Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi | **2** | 2 | | |
| ~~*51.*~~[52] | ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi~~ | ~~**3**~~ | ~~3~~ | - | - |
| ~~*52.*~~[53] | ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsi~~ | ~~**2**~~ | ~~2~~ | - | - |
| *53.* | Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının Katibliyi | **2** | 2 | | |
| *54.* | Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası | **3** | 3 | | |
| *55.* | Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası | **3** | 3 | | |
| ~~*56.*~~ | ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsi~~[54] | ~~**3**~~ | ~~3~~ | - | - |
| *57.* | Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası | **4** | 4 | | |
| *58.* | Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi | **16** | 16 | | |
| *59.* | Azərbaycan Respublikasının Ali Məhkəməsi | **11** | 11 | | |
| *60.* | Bakı Apellyasiya Məhkəməsi | **6** | 6 | | |
| *61.* | Şəki Apellyasiya Məhkəməsi | **2** | 2 | | |
| *62.* | Sumqayıt Apellyasiya Məhkəməsi | **2** | 2 | | |
| *63.* | Gəncə Apellyasiya Məhkəməsi | **2** | 2 | | |
| *64.* | Şirvan Apellyasiya Məhkəməsi | **2** | 2 | | |
| *65.* | Bakı Ağır Cinayətlər Məhkəməsi | **2** | 2 | | |
| *66.* | Lənkəran Ağır Cinayətlər Məhkəməsi | **2** | 2 | | |
| *67.* | Gəncə Ağır Cinayətlər Məhkəməsi | **2** | 2 | | |
| *68.* | Şəki Ağır Cinayətlər Məhkəməsi | **2** | 2 | | |
| *69.*[55] | *Azərbaycan Respublikasının inzibati məhkəmələri* | ***8*** | *8* | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| *69-1.* | *Azərbaycan Respublikasının kommersiya məhkəmələri* | ***8*** | *8* | | |
| 70.[56] | Azərbaycan Respublikasının hərbi məhkəmələri | **11** | 11 | | |
| *71.* | *Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti* | *3* | *3*[57] | | |
| ~~**CƏMİ**~~ | | ~~**1173**~~ | ~~**346**~~ | ~~**21**~~ | ~~**806**~~[58] |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


**1.** 10 avqust 2012-ci il tarixli **179** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 8, maddə 827)**

**2.** 14 avqust 2012-ci il tarixli **182** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 8, maddə 830)**

**3.** 29 mart 2013-cü il tarixli **54** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 347)**

**4.** 24 iyul 2013-cü il tarixli **192** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 07, maddə 886)**

**5.** 16 avqust 2013-cü il tarixli **218** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 3 sentyabr 2013-cü il, 192 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 08, maddə 1017)**

**6.** 11 oktyabr 2013-cü il tarixli **300** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 10, maddə 1218)**

**7.** 10 yanvar 2014-cü il tarixli **1** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 01, maddə 51**)

**8.** 24 yanvar 2014-cü il tarixli **20** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 31 yanvar 2014-cü il, 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 1, maddə 69**)

**9.** 14 fevral 2014-cü il tarixli **46** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 20 fevral 2014-cü il, 37 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 02, maddə 201**)

**10.** 3 aprel 2014-cü il tarixli **95** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 441**)

**11.** 13 may 2014-cü il tarixli **145** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 05, maddə 572)**

**12.** 30 may 2014-cü il tarixli **170** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 05, maddə 594)**

**13.** 13 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 22 iyun 2014-cü il, 131 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 747** )

**14.** 15 avqust 2014-cü il tarixli **282** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 8, maddə 1015)**

**15.** 21 noyabr 2014-cü il tarixli **379** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 07 dekabr 2014-cü il, 268, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 12, maddə 1658** )

**16.** 5 dekabr 2014-cü il tarixli **388** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 12, maddə 1666**)

**17.** 13 fevral 2015-ci il tarixli **38** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 22 fevral 2015-ci il, 42** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 2, maddə 227** )

**18.** 4 noyabr 2015-ci il tarixli **353** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1417)**

**19.** 25 fevral 2016-cı il tarixli **88** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 31 mart 2016-cı il, 66, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 03, maddə 609)**

**20.** 29 aprel 2016-cı il tarixli **177** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 6 may 2016-cı il, 97, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 4, maddə 831)**

**21.** 13 may 2016-cı il tarixli **195** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 20 may 2016-cı il, 108 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 955** )

**22.** 15 iyul 2016-cı il tarixli **274** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 7, maddə 1353)**

**23.** 09 avqust 2016-cı il tarixli **299** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1437)**

**24.** 22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585** )

**25.** 23 sentyabr 2016-cı il tarixli **364** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 29 sentyabr 2016-cı il, 213, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1589** )

26. 26 dekabr 2016-cı il tarixli **525** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 28 dekabr 2016-cı il, 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2241**)

27. 3 may 2017-ci il tarixli **195** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 may 2017-ci il, 95, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5 , maddə 966**)

28. 11 oktyabr 2017-ci il tarixli **425** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10 , maddə 1890**)

29. 18 oktyabr 2017-ci il tarixli **457** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 21 oktyabr 2017-ci il, 231 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10 , maddə 1919**)

30. 20 noyabr 2017-ci il tarixli **504** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 noyabr 2017-ci il, 258 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11 , maddə 2168** )

31. 6 dekabr 2017-ci il tarixli **528** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 dekabr 2017-ci il, 271 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, II kitab, maddə 2476**)

32. 6 dekabr 2017-ci il tarixli **539** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, II kitab, maddə 2487**)

33. 15 dekabr 2017-ci il tarixli **559** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 21 dekabr 2017-ci il, 282, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, II kitab, maddə 2507**)

34. 6 mart 2018-ci il tarixli **77** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti 8 mart 2018-ci il, 53, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 588**)

35. 30 mart 2018-ci il tarixli **123** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti 1 aprel 2018-ci il, 72, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 632**)

36. 25 iyun 2018-ci il tarixli **277** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 28 iyun 2018-ci il, 140 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1374**)

37. 31 iyul 2018-ci il tarixli **337** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 2 avqust 2018-ci il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, II kitab, maddə 1668**)

38. 20 avqust 2018-ci il tarixli **356** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 avqust 2018-ci il, 187 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1807**)

39. 6 sentyabr 2018-ci il tarixli **378** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 sentyabr 2018-ci il, 199 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9, maddə 1906**)

40. 4 oktyabr 2018-ci il tarixli **427** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 oktyabr 2018-ci il, 223, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2142** )

41. 17 oktyabr 2018-ci il tarixli **458** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 21 oktyabr 2018-ci il, 237, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2172** )

42. 6 noyabr 2018-ci il tarixli **475** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 8 noyabr 2018-ci il, 252 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2426**)

43. 14 mart 2019-cu il tarixli **95** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 17 mart 2019-cu il, 62 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 529**)

44. 28 mart 2019-cu il tarixli **130** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 mart 2019-cu il, 67, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 563**)

45. 18 fevral 2020-ci il tarixli **54** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 fevral 2020-ci il, 40 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 204**)

46. 28 aprel 2020-ci il tarixli **154** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 aprel 2020-ci il, 83 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 4, maddə 500**)

47. 19 may 2020-ci il tarixli **181** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 may 2020-ci il, 100 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 652**)

48. 25 avqust 2020-ci il tarixli **306** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 27 avqust 2020-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1123**)

49. 18 sentyabr 2020-ci il tarixli **344** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 19 sentyabr 2020-ci il, 190 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 9, maddə 1217** )

50. 1 oktyabr 2020-ci il tarixli **369** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 3 oktyabr 2020-ci il, 202 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 10, maddə 1258** )

51. 22 oktyabr 2020-ci il tarixli **408** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 oktyabr 2020-ci il, 219 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 10, maddə 1296**)

52. 27 noyabr 2020-ci il tarixli **462** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 28 noyabr 2020-ci il, 249 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1405**)

53. 30 dekabr 2020-ci il tarixli **515** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 31 dekabr 2020-ci il, 277** )

54. 16 fevral 2021-ci il tarixli **38** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 21 fevral 2021-ci il, 40** )

55. 2 mart 2021-ci il tarixli **46** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 4 mart 2021-ci il, 49** )

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585** ) ilə 1-ci və 2-ci hissələrdə "**milli təhlükəsizlik**," sözləri "**dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidməti**," sözləri ilə əvəz edilmişdir.

[2] 29 mart 2013-cü il tarixli **54** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 03, maddə 347**) ilə 3-cü hissədə "**Rayon (şəhər) icra hakimiyyəti**" sözləri "B**akı Şəhər İcra Hakimiyyəti başçısının aparatı üçün xidməti minik avtomobillərinin say həddi (limiti) 13 ədəd, rayon (şəhər) icra hakimiyyəti**" sözləri ilə əvəz edilmişdir və həmin hissəyə "**(əhalisinin sayı 10 min nəfərdən artıq olan)**" sözlərindən sonra "**Bakı Şəhər İcra Hakimiyyəti başçısı aparatının birbaşa tabeliyində olan dövlət orqanlarının rəhbərləri**," sözləri əlavə edilmişdir.

20 noyabr 2017-ci il tarixli **504** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 noyabr 2017-ci il, 258**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11 , maddə 2168** ) ilə 3-cü hissədə "**onun müavinləri**," sözlərindən sonra "**yanında olan orqanın rəhbəri**," sözləri əlavə edilmişdir.

14 mart 2019-cu il tarixli **95** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 17 mart 2019-cu il, 62 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 529**) ilə 3-cü hissədə "**orqanın rəhbəri**" sözləri "**orqanların rəhbərləri**" sözləri ilə, "**başçısı aparatının birbaşa tabeliyində olan dövlət orqanlarının**" sözləri isə "**başçısının yanında olan dövlət büdcəsindən maliyyələşən orqanların**" sözləri ilə əvəz edilmişdir.

19 may 2020-ci il tarixli **181** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 may 2020-ci il, 100 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 652**) ilə 3-cü hissəsindən "**dövlət büdcəsindən maliyyələşən**" sözləri çıxarılmışdır.

[3] 22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214**) ilə 1 nömrəli əlavənin adında, 1-ci və 3-cü hissələrində "**milli təhlükəsizlik**" sözləri "**dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri**" sözləri ilə əvəz edilmişdir.

[4] 28 aprel 2020-ci il tarixli **154** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 aprel 2020-ci il, 83 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 4, maddə 500**) ilə 1 nömrəli əlavə – "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanlarında xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri istisna olmaqla) xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri üçün aylıq yürüş həddi və istismar xərclərinin Normaları"nın 4-cü hissəsinin birinci abzasında "**I-VI kateqoriyalı**" sözləri "**ali-III kateqoriyalı**" sözləri ilə əvəz edilmişdir və ikinci abzasına "**avtomobilləri**" sözündən sonra "**, habelə "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində göstərilən xidmətlərin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən səyyar formada təşkilində istifadə edilən xüsusi təyinatlı avtonəqliyyat vasitələri və avtobuslar**" sözləri əlavə edilmişdir.

27 noyabr 2020-ci il tarixli **462** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 28 noyabr 2020-ci il, 249 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1405**) ilə 1 nömrəli əlavə – "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanlarında xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri istisna olmaqla) xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri üçün aylıq yürüş həddi və istismar xərclərinin Normaları"nın 4-cü hissəsinin ikinci abzasına "**avtonəqliyyat vasitələri və avtobuslar**" sözlərindən sonra "**, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Sahələrarası Nəqliyyat və Kompleks Mexaniki Təminat İdarəsinin balansında olan ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsi məqsədilə istifadə edilən nəqliyyat vasitələri**" sözləri əlavə edilmişdir.

[5] 22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585** ) ilə 2 nömrəli əlavənin adında "**milli təhlükəsizlik**," sözləri "**dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri**," sözləri ilə əvəz edilmişdir.

[6] 31 iyul 2018-ci il tarixli **337** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 2 avqust 2018-ci il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, II kitab, maddə 1668**) ilə "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlində 1-ci hissənin 3-cü və 4-cü sütunlarındakı "**24**" rəqəmi "**25**" rəqəmi ilə əvəz edilmişdir.

[7] 09 avqust 2016-cı il tarixli **299** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1437**) ilə "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, milli təhlükəsizlik, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"- nin cədvəlində 2-ci hissənin 3-cü sütununda "**22**" rəqəmi "**81**" rəqəmi ilə, 4-cü sütununda "**12**" rəqəmi "**19**" rəqəmi ilə, 6-cı sütununda "**10**" rəqəmi "**60**" rəqəmi ilə əvəz edilsin və 5-ci sütuna "**2**" rəqəmi əlavə edilmişdir.

20 avqust 2018-ci il tarixli **356** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 avqust 2018-ci il, 187, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1807**) ilə 2-ci hissədə "cəmi" sütununda "**81**" rəqəmləri "**79**" rəqəmləri ilə əvəz edilmişdir və "yanında olan orqanlar üzrə" sütunundan "**2**" rəqəmi çıxarılmışdır.

[8] 3 aprel 2014-cü il tarixli **95** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 441**) ilə 2 nömrəli əlavə — "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, milli təhlükəsizlik, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlində 3-cü sıranın "cəmi" sütunundakı "**70**" rəqəmi "**75**" rəqəmi ilə, "aparat üzrə" sütundakı "**5**" rəqəmi "**10**" rəqəmi ilə əvəz edilmişdir.

13 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 22 iyun 2014-cü il, 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 747** ) ilə "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, milli təhlükəsizlik, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlinin 6-cı hissəsinin "Orqanın adı" sütununda "**İnformasiya Texnologiyaları**" sözləri "**Yüksək Texnologiyalar**" sözləri ilə əvəz edilmişdir.

[9] 28 aprel 2020-ci il tarixli **154** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 aprel 2020-ci il, 83 ,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 4, maddə 500**) ilə 2 nömrəli əlavə – "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidməti, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin 5-ci hissədən "**və Turizm**" sözləri çıxarılmışdır.

[10] 11 oktyabr 2017-ci il tarixli **425** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10 , maddə 1890**) ilə "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlində 5-ci sıranın 3-cü sütununda "**71**" rəqəmi "**22**" rəqəmi ilə və 6-cı sütununda "**65**" rəqəmi "**16**" rəqəmi ilə əvəz edilmişdir.

